**Təsdiq edilmişdir:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

24.06.2024-cü il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Turizmin inkişafı” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planı

<table>
<tr><th>Sıra №-si</th><th>İndikatorun adı</th><th>Mövcud vəziyyət (son hesabat üzrə)</th><th>Metodologiya</th><th>Görüləcək tədbirlər</th><th>İcraçılar</th><th>İlkin nəticə indikatoru və hədəf göstərici</th><th>Son icra müddəti</th><th>Məsul şəxslər</th></tr>
<tr><td colspan="9">Səyahət və Turizmin İnkişafı İndeksi</td></tr>
<tr><td colspan="9">1. Biznes mühiti</td></tr>
<tr><td rowspan="4">1.1.</td><td rowspan="4">1.06 De-yure ticarət qloballaşması</td><td rowspan="4">60-cı yer, 4,85 bal</td><td rowspan="4">Bu göstərici ticarət qaydalarını, ticarət üzrə vergiləri, tarifləri və ticarət razılaşmalarını nəzərə alaraq “de-yure” ticarət qloballaşmasını ölçən kompleks indeksdir.</td><td colspan="5">Prioritet istiqamət: Azərbaycanın imzaladığı sərbəst ticarət sazişlərinin sayı barədə məlumatların beynəlxalq məlumat bazalarında düzgün əks etdirilməsinin təmin edilməsi</td></tr>
<tr><td>1. Azərbaycanın imzaladığı ticarət sazişlərinin Ümumdünya Ticarət Təşkilatının bazasında əks etdirilməsi üzrə əlaqələndirmə işlərinin davam etdirilməsi</td><td>İqtisadiyyat Nazirliyi</td><td>Azərbaycanın ÜTT üzvü olan ölkələrlə imzaladığı sazişlərin müvafiq bazada əks etdirilməsi</td><td>01.12.2024</td><td>Bəhruz Baxşəliyev</td></tr>
<tr><td colspan="5">Prioritet istiqamət: Birləşmiş Ərəb Əmirlikləri ilə Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişinin imzalanması istiqamətində müvafiq işlərin görülməsi</td></tr>
<tr><td>2. Saziş layihəsinin bir sıra fəsillərinin razılaşdırılmasının başa çatdırılması</td><td>İqtisadiyyat Nazirliyi</td><td>Birləşmiş Ərəb Əmirlikləri ilə Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişinin imzalanması</td><td>01.12.2024</td><td>Gülçin Ələsgərova</td></tr>
</table>

<table>
<tr><td colspan="9">2. Təhlükəsizlik və mühafizə</td></tr>
<tr><td rowspan="5">2.1.</td><td rowspan="5">2.02 Gecə tək gəzinti təhlükəsizliyi</td><td rowspan="5">21-ci yer, 5,65 bal</td><td rowspan="5">Bu göstərici üzrə məlumatlar Leqatum Rifah İndeksinin müvafiq komponenti üzrə əldə olunmuş nəticələrə əsaslanır və həmin nəticələr “Gallup” təşkilatı tərəfindən verilən “Şəhərdə və ya yaşadığınız yerdə gecə vaxtı gəzərkən özünüzü təhlükəsiz hiss edirsinizmi?” sualına “bəli” cavab verənlərin sayına görə müəyyən edilir.</td><td colspan="5">Prioritet istiqamət: Turistlərin dağlıq ərazilərə, meşə zolaqlarına, təhlükə ilə üzləşə biləcəkləri digər ərazilərə səyahətləri zamanı bələdçilərin ayrılması</td></tr>
<tr><td>1. Müvafiq sahə üzrə tənzimləmə çərçivəsinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi</td><td>Dövlət Turizm Agentliyi, Dövlət Sərhəd Xidməti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi</td><td>Tənzimləmə ilə bağlı ilkin araşdırma sənədi və təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması</td><td>01.12.2024</td><td>Məhəmməd Muradov</td></tr>
<tr><td colspan="5">Prioritet istiqamət: "Təhlükəsiz şəhər" yanaşmasının turizm əhəmiyyətli ərazilərdə (şəhər, kənd, qəsəbə və s.) tətbiqi</td></tr>
<tr><td>2.Gecə işıqlandırmasının təmin olunması</td><td>Aidiyyəti yerli icra hakimiyyəti orqanları</td><td>Turizm əhəmiyyətli şəhər, kənd və qəsəbələrdə gecə işıqlandırmasının təmin olunması</td><td rowspan="3">İl ərzində</td><td>Yerli icra hakimiyyəti orqanlarının nümayəndələri</td></tr>
<tr><td>3. Kamera nəzarətinin təmin edilməsi (süni intellektlə cinayətin aşkarlanması texnologiyası əsasında)</td><td rowspan="2">Daxili İşlər Nazirliyi</td><td>Turizm əhəmiyyətli 10 şəhərdə/kənddə /qəsəbədə kamera nəzarətinin təmin olunması</td><td rowspan="2">Vüqar Əhmədov, Elnur Bayramov</td></tr>
<tr><td>2.2.</td><td>2.03 Qətl hadisələrinin sayı (hər 100 min nəfərə)</td><td>50-ci yer, 6,62 bal</td><td>Bu göstərici 100 min nəfərə düşən qətl sayı əsasında müəyyən edilir. BMT-nin Narkotik və Cinayətlər Bürosunun qətllərlə bağlı topladığı məlumatlara əsaslanır.</td><td>Əhalinin təhlükəsizliyinin daha da gücləndirilməsi və baş verə biləcək qətl hadisələrinin qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi</td><td>Həyata keçiriləcək təhlükəsizlik tədbirləri</td></tr>
<tr><td colspan="9">3. İnsan resursları və əmək bazarı</td></tr>
<tr><td rowspan="2">3.1.</td><td rowspan="2">4.01 Orta təhsilli işçi qüvvəsi<br><br>4.02 Ali təhsilli işçi qüvvəsi</td><td rowspan="2">97-ci yer, 2,80 bal<br><br>54-cü yer, 4,05 bal</td><td rowspan="2">Bu göstərici ən azı orta təhsili olan işçi qüvvəsinin ümumi işçi qüvvəsində payını əks etdirir.<br><br>Bu göstərici ali təhsilli işçi qüvvəsinin ümumi işçi qüvvəsində payını əks etdirir.</td><td colspan="5">Prioritet istiqamət: Turizm sahəsində prioritet peşələrin icbari sertifikatlaşdırılmasına dair tənzimləmə çərçivəsinin yaradılması</td></tr>
<tr><td>Prioritet istiqamət üzrə müvafiq araşdırmanın aparılması və nəticələri üzrə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi</td><td>Dövlət Turizm Agentliyi</td><td>Təqdim edilmiş araşdırma hesabatı və təkliflər</td><td>01.12.2024</td><td>Məhəmməd Muradov</td></tr>
</table>

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 3.2. | 4.07 Çevik (flexible) iş rejimi | 26-cı yer, 4,92 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda "Ölkənizdə şirkətlər nə qədər çevik iş rejimi mexanizmləri (məsafədən və yarım günlük iş rejimləri) təklif edirlər?" sualına cavab [1 =heç təklif edilmir; 7=böyük ölçüdə təklif edilir]. | *Prioritet istiqamət: İşçilərin əmək funksiyalarının distant (məsafədən) iş formasında yerinə yetirilməsi sahəsi üzrə qanunvericiliyin formalaşdırılması* | | | | |
| | | | | Müvafiq sahə üzrə qanunvericiliyin formalaşdırılması istiqamətində təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Distant iş rejimi ilə bağlı Əmək Məcəlləsində dəyişiklik edilməsinə dair hazırlanmış layihə | 01.10.2024 | Nizami Hüseynli |
| **4. İnformasiya və kommunikasiya texnologiyalarına hazırlıq** | | | | | | | | |
| 4.1. | 5.05 Nağdsız ödənişlərdən istifadə | 91-ci yer, 3,55 bal | Bu göstərici rəqəmsal ödəniş etmiş və ya qəbul etmiş 15 və daha yuxarı yaşlı əhalinin payını əks etdirir. Rəqəmsal ödənişlərə son bir ildə mobil puldan, debet və ya kredit kartlarından, ödəniş etmək üçün mobil telefondan, hesabları ödəmək, onlayn şəkildə və ya mağazada bir şey almaq üçün internetdən istifadə, birbaşa maliyyə təşkilatının hesabından və ya mobil pul hesabı vasitəsilə hesabların ödənilməsi və ya pul köçürmələri daxildir. Bura həmçinin kənd təsərrüfatı məhsulları üzrə ödənişlər, hökumət köçürmələri, əmək haqqı və ya dövlət sektoru pensiyası üçün maliyyə institutu hesabına və ya mobil pul hesabına ödənişlərin qəbulu daxildir. | Bakıda və regionlarda turizm xidməti obyektlərində nağdsız ödənişlərin tətbiqi üzrə mövcud vəziyyətin araşdırılması və bu ödəniş üsulunun genişləndi-rilməsi və təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti), Dövlət Turizm Agentliyi | Komissiyaya təqdim olunmuş əsaslandırılmış təkliflər | 01.10.2024 | Samir Rzayev, Valeh Musayev, Məhəmməd Muradov |

<table>
<tr>
<td rowspan="9">4.2.</td>
<td rowspan="9">5.06<br>Nəqliyyat və daşıma xidmətlərinin təmin olunmasında rəqəmsal platformalar-dan istifadə</td>
<td rowspan="9">37-ci yer, 5,08 bal</td>
<td rowspan="9">Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə nəqliyyat və daşıma xidmətləri üçün rəqəmsal platformalardan nə dərəcədə istifadə olunur?” sualına cavab [ 1= heç istifadə olunmur; 7= çox geniş istifadə olunur].</td>
<td colspan="5">Prioritet istiqamət: Dövlətə məxsus müəssisələrin onlayn platformaları vasitəsilə bilet satışının təşviq edilməsi</td>
</tr>
<tr>
<td>1. Dəmir yolu vasitəsilə edilən səyahətlər üçün onlayn satış platformasından istifadənin təşviqi və təbliği</td>
<td>“Azərbaycan Dəmir Yolları” QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi</td>
<td rowspan="2">Bilet satışlarında onlayn satış payının artımı</td>
<td rowspan="4">İl ərzində</td>
<td>Orxan Əhmədzadə, Fariz Əliyev</td>
</tr>
<tr>
<td>2. Şəhərlərarası müntəzəm avtobus marşrutlarına biletlərin onlayn satış platforması vasitəsilə əldə edilməsinin təşviqi və təbliği</td>
<td rowspan="2">Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi</td>
<td rowspan="2">Emin Məcidov, Fariz Əliyev</td>
</tr>
<tr>
<td>3. Şəhərdaxili (rayondaxili) müntəzəm sərnişin daşımala-rında gediş haqqının nağdsız qaydada ödənilməsinin təşviqi və cəlbediciliyinin artırılması</td>
<td>Nağdsız ödənişdən istifadə edən sərnişinlərin sayının (payının) artırıl-ması və nağdsız ödəniş vasitələrinin əhatə dairə-sinin genişləndirilməsi</td>
</tr>
<tr>
<td>4. Dəmir yolu ilə sərnişin daşımaları üzrə onlayn satış platformalarının qonşu ölkələrin müvafiq sistemlərinə inteqrasiyası</td>
<td>“Azərbaycan Dəmir Yolları” QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi</td>
<td>2 qonşu ölkə ilə müvafiq inteqrasiyanın təmin edilməsi</td>
<td>Orxan Əhmədzadə, Fariz Əliyev</td>
</tr>
<tr>
<td colspan="5">Prioritet istiqamət: Sifarişli sərnişindaşıma xidmətinin təşkilinin təkmilləşdirilməsi</td>
</tr>
<tr>
<td>5. Ölkədaxili sifarişli sərnişin daşımalarına elektron xidmətlər portalı vasitəsilə icazələrin verilməsi</td>
<td>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi</td>
<td>Sifarişli sərnişindaşıma üzrə informasiya sisteminin (formulyar) yaradılması</td>
<td>01.10.2024</td>
<td>Fariz Əliyev</td>
</tr>
<tr>
<td colspan="5">Prioritet istiqamət: Nəqliyyat sahəsində özəl sektor tərəfindən alternativ və ya innovativ rəqəmsal satış platformalarının yaradılmasının dəstəklənməsi məqsədilə nəqliyyat xidmətinin təşkilinə məsul olan dövlət qurumları tərəfindən özəl sektora elektron məlumat mübadiləsi imkanının yaradılması</td>
</tr>
<tr>
<td>6. Hava yolu, dəmir yolu, rayonlararası avtobus, metro, ictimai şəhər nəqliyyatı üzrə məlumat mübadiləsi servislərinin açıq məlumat mənbələrində yerləşdirilməsi (məs. opendata.az) və özəl sektorun bu məlumat mənbələrindən ehtiyaclarına uyğun istifadəsi ilə bağlı onlarla əməkdaşlıq edilməsi</td>
<td>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi</td>
<td>Məlumat mənbələrinə icazə verilmiş elektron satış platformalarının sayı</td>
<td>01.10.2024</td>
<td>Fariz Əliyev</td>
</tr>
</table>

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 4.3. | 5.07 Hotel, restoran və istirahət xidmətləri üçün rəqəmsal platformadan istifadə | 68-ci yer, 5,13 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə hotel, restoran və istirahət xidmətləri üçün rəqəmsal platformalardan nə dərəcədə istifadə olunur?” sualına cavab [ 1= heç istifadə olunmur; 7= çox geniş istifadə olunur]. | *Prioritet istiqamət: Hotel, restoran və istirahət xidmətləri üzrə rəqəmsal platformalardan istifadənin genişləndirilməsi* | | | | |
| | | | | 1. Turizm (xidmət) sektorunda e-ticarət ilə bağlı mövcud vəziyyətin (boşluqların) araşdırılması və məqsədəmüvafiq hesab edildiyi təqdirdə qanunvericiliyə dəyişikliklərə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Komissiyaya təqdim edilmiş araşdırma hesabatı | 01.12.2024 | Məhəmməd Muradov, Elgün Hacıxəlilov, Bəhruz Baxşəliyev |
| | | | | 2. Hotel, restoran və istirahət xidmətləri ilə bağlı e-ticarət (e-commerce) bilik və bacarıqlarının inkişafına dair təlimlərin keçirilməsi | Dövlət Turizm Agentliyi | Təlimə cəlb olunmuş subyektlərin sayı | | Məhəmməd Muradov |
| | | | | 3. Daxili turizmin təşviq edilməsi məqsədilə dövlət-özəl tərəfdaşlığı əsasında yerləşmə vasitələrinin onlayn rezervasiyası üzrə platformanın yaradılması | | Yaradılmış müvafiq platforma | | |
| **5. Səyahət və turizmin prioritetliyi** | | | | | | | | |
| 5.1. | 6.01 Dövlət tərəfindən səyahət və turizmə çəkilən xərclər | 65-ci yer, 2,92 bal | Bu indikator dövlət tərəfindən səyahət və turizmə çəkilən xərclərin dövlət büdcəsinin ümumi xərclərində xüsusi çəkisini əks etdirir. Bu göstəriciyə ziyarətçilər üçün mədəniyyət, istirahət, rəsmiləşmə və s. kimi səyahət və turizmlə bağlı xidmətlərin göstərilməsi ilə əlaqədar dövlət qurumları tərəfindən çəkilən xərclər daxildir. | *Prioritet istiqamət: Metodologiyanın dəqiqləşdirilməsi* | | | | |
| | | | | Metodologiyaya əsasən müəyyən olunmuş xərc istiqamətlərinə dair məlumatların formalaşma mənbələrinin dəqiqləşdirilməsi ilə bağlı görüşlərin təşkili | Dövlət Turizm Agentliyi | Məlumatın formalaşma mənbələri barəsində aydın və dəqiq biliklərin əldə edilməsi | İl ərzində | Məhəmməd Muradov |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 5.2. | 6.02 Səyahət və turizm məlumatları-nın əhatəliliyi | 13-cü yer, 5,95 bal | Bu indikator səyahət və turizm üzrə müvafiq məlumatların mövcudluğunu əks etdirir. Bu göstərici BMÜTT-nin (UNWTO) turizm statistika bazasında olan 30 fərqli komponent üzrə dövlətlər tərəfindən illik əsasda təqdim olunan məlumatların mövcudluğunu göstərir. | *Prioritet istiqamət: Ümumdünya Turizm Təşkilatının (ÜTT) turizm statistikasına dair məlumat bazasında ölkəmiz üzrə çatışmayan məlumatların əldə edilərək müvafiq bazaya daxil edilməsi üçün təqdim olunması* | | | | |
| | | | | 1. Hava nəqliyyatında qeyri-müntəzəm reyslərlə daşınan sərnişinlərin sayına dair məlu-matların əldə edilməsi və ÜTT-nin müvafiq bazasına daxil edilməsi üçün təqdim olunması | Dövlət Turizm Agentliyi, Dövlət Statistika Komitəsi | Çatışmayan məlumatların ÜTT-nin müvafiq bazasında əks olunması | İl ərzində | Məhəmməd Muradov, Rauf Əliyev |
| | | | | 2. İndikator üzrə çatışmayan digər məlumatların əldə edilməsi mexanizminin yaradılması | Dövlət Statistika Komitəsi, Dövlət Turizm Agentliyi | ÜTT-nin məlumat bazasında ölkəmizə dair çatışmayan digər məlumatların əldə edilməsi | | Rauf Əliyev, Məhəmməd Muradov |
| 5.3. | 6.04 Ölkə Brendi Strategiyası reytinqi | 75-ci yer, 4,10 bal | Bu indikator ölkənin brend strategiyasının dəqiqliyini (doğruluğunu) qiymətləndirir. Bu göstərici müəyyən bir ölkə üçün ən populyar brend etiketləri ilə həmin ölkənin ən çox təbliğ etdiyi brend etiketlərini müqayisə edən düstur vasitəsilə brend strategiyasının dəqiqliyini ölçür. | *Prioritet istiqamət: Rəqəmsal marketinq tədbirlərinin təkmilləşdirilməsi* | | | | |
| | | | | 1. “Google analytics” xidmətlərindən istifadə etməklə turizm sahəsində Azərbaycanla bağlı populyar brend etiketlərinin müəyyən edilməsi | Dövlət Turizm Agentliyi | Turizm üzrə populyar brend etiketlərinin müəyyənləşdirilməsi | 01.12.2024 | Məhəmməd Muradov |
| | 12.04 Təbii turizm rəqəmsal tələbi | 107-ci yer, 1,10 bal | Bu göstərici təbiətlə bağlı brend etiketləri üzrə ümumi onlayn axtarış həcmini ölçür. | | | | | |
| | 13.04 Mədəni və əyləncə turizmi üzrə rəqəmsal tələb | 100-cü yer, 1,13 bal | Bu göstərici mədəniyyət və əyləncə ilə bağlı brend etiketləri üzrə ümumi onlayn axtarış həcmini ölçür. | 2. İndikatorlar üzrə aparılmış təhlil nəticələrinin turizm potensialının genişləndirilməsi üzrə Marketinq və Kommunikasiya Planına inteqrasiya edilməsi | | Təhlil nəticələrinin müvafiq planda nəzərə alınması | | |
| | 14.04 Digər turizm növləri üzrə rəqəmsal tələb | 92-ci yer, 1,07 bal | Bu göstərici biznes turizmi, təhsil və sağlamlıq turizmi üzrə brend etiketləri ilə bağlı ümumi onlayn axtarış həcmini ölçür. | | | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **6. Səyahət və turizmə açıqlıq** | | | | | | | | |
| 6.1. | 7.01 Viza tələbləri | 50-ci yer, 3,75 bal | Bu indikator hədəf turizm bazarlarından ölkəyə giriş üçün viza tələblərini əks etdirir. Bu göstərici ölkəyə vizasız səfərin, vizanın gəlişdə alına bilməsi və elektron vizanın mövcud olub-olmaması əsasında təyinat ölkəsinin öz viza siyasəti ilə ölkəyə daxil olmanı nə dərəcədə asanlaşdırdığını göstərir. | Komissiyanın “Beynəlxalq sazişlər üzrə” işçi qrupu çərçivəsində viza prosedurlarının sadələşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi | Xarici İşlər Nazirliyi | - | İl ərzində | Anar Yusifzadə |
| 6.2. | 7.02 Hava əlaqəsi xidmətləri üzrə sazişlərin sayı | 106-cı yer, 1,56 bal | Bu göstərici ölkənin tərəf olduğu hava əlaqəsi sazişləri və onların liberallaşma səviyyəsinə görə çəkisi əsasında müəyyən edilir. Ənənəvi sazişlər 0,5, keçid sazişlər 0,75, tam liberallaşma isə 1 əmsalla qiymətləndirilir. Avropa İttifaqına üzv dövlətlər öz aralarında tam liberallaşmış hesab olunur, Avropa İttifaqına üzv dövlətlər arasında bağlanan ikitərəfli sazişlər isə nəzərə alınmır. Eyni metodologiya Avropa Ümumi Aviasiya Məkanı, Avro-Aralıq dənizi Aviasiya Sazişi, Aİ-ABŞ Açıq Səma Sazişi, Aİ-Kanada Hərtərəfli Hava Nəqliyyatı Sazişi və ASEAN Açıq Səma Sazişinə də tətbiq olunur. | *Prioritet istiqamət: Hava məkanının liberallaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi* | | | | |
| | | | | 1.Tam liberallaşma sazişləri ilə hava məkanının liberallaşma səviyyəsinin artırılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1) Tam liberallaşma sazişlərinə qoşulma ilə bağlı araşdırma sənədinin hazırlanaraq Komissiyaya təqdim olunması 2) Avropa Ümumi Aviasiya Məkanı Sazişi ilə bağlı danışıqların bərpa olunması | 01.12.2024 | Fariz Əliyev, Elmar Əkbərov |
| | | | | 2. Keçid sazişlərlə hava məkanının liberallaşma səviyyəsinin artırılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Turizm Agentliyi | Keçid sazişlərinə qoşulma ilə bağlı araşdırma sənədinin hazırlanaraq Komissiyaya təqdim olunması | 01.10.2024 | Fariz Əliyev, Elmar Əkbərov, Məhəmməd Muradov |
| | | | | 3. Ekspertlər səviyyəsində razılaşdırılmış ənənəvi sazişlərin Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) Ümumdünya Hava Xidmətləri Sazişləri (WASA) üzrə məlumat bazasına daxil edilməsi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | ICAO-nun məlumat bazasında Azərbaycanla bağlı müvafiq məlumatların yenilənməsi | 01.12.2024 | Elmar Əkbərov, Fariz Əliyev |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **7. Qiymət rəqabətliliyi** | | | | | | | | |
| 7.1. | 8.04 Qısamüddətli kirayələrin qiyməti | 26-cı yer, 6,08 bal | Bu göstərici onlayn rezervasiya platforması olan Airbnb və digər oxşar platformalarda aktiv şəkildə mövcud olan kirayə evlərin bir gün üçün orta qiymətini əks etdirir. | *Prioritet istiqamət: Kirayə biznesi ilə məşğul olan şəxslərin Airbnb platformasından istifadə ilə bağlı maarifləndirilməsi və bu sahədə zəruri dəstək tədbirlərinin həyata keçirilməsi* | | | | |
| | | | | 1. Kirayə biznesi ilə məşğul olan şəxslərə Airbnb platformasından istifadə qaydaları barədə təlimlərin təşkili | Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi | Təlimə cəlb olunanların sayı | 01.12.2024 | Məhəmməd Muradov, Paşa Nəbiyev |
| | | | | 2. Kirayə biznesi ilə məşğul olan şəxslərə Airbnb platformasından istifadə ilə bağlı davamlı fərdi dəstək (platformada qeydiyyat və hesabın idarə olunması ilə bağlı yaranacaq sualların cavablandırılması və s.) mexanizminin yaradılması | | Fərdi dəstək mexanizminin yaradılması | | |
| **8. Hava nəqliyyatı infrastrukturu** | | | | | | | | |
| 8.1. | 9.01 Hava nəqliyyatı xidmətlərinin effektivliyi | 38-ci yer, 5,11 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə hava nəqliyyatı xidmətləri (tezlik, dəqiqlik, sürət və qiymət baxımından) nə dərəcədə səmərəlidir?” sualına cavab [1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | *Prioritet istiqamət: İstehlakçı məmnuniyyətinin artırılması (tezlik, dəqiqlik, sürət, qiymət və s. baxımından)* | | | | |
| | | | | 1. Müxtəlif xidmət sinifləri üzrə həyata keçirilən hava daşımalarındakı boşluqların və çatışmazlıqların müəyyən edilməsi məqsədilə sorğu aparılması və nəticələri üzrə müvafiq fəaliyyət planının hazırlanması | “Azərbaycan Hava Yolları” QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | Aparılmış sorğunun nəticələrinin müvafiq fəaliyyət planı ilə birlikdə Komissiyaya təqdim olunması | 01.11.2024 | Teymur Həsənov, Fariz Əliyev, Şəmsi Rzalı |
| | | | | 2. Vergi (bilet, yanacaq, xidmət, məhsullar və s. üzrə) və hava limanı yığımlarının azaldılması imkanlarının təhlil edilməsi, nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | “Azərbaycan Hava Yolları” QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Komissiyaya təqdim edilmiş əsaslandırılmış təkliflər paketi | | Teymur Həsənov, Fariz Əliyev, Elmar Əkbərov |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 8.2. | 9.02 Həftəlik uçuş məsafəsi | 85-ci yer | Bu indikator əhali sayına görə həftəlik (orta illik) yerli və beynəlxalq uçuş məsafəsini ölçür. Bu göstərici aviaşirkətin sərnişin daşıma potensialını göstərir və hər bir uçuşda mövcud oturacaqların sayının uçuş məsafəsinə vurulması ilə hesablanır. Yekun qiymət il üzrə həftəlik orta qiyməti əks etdirir. | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | İndikator üzrə ölkəmizə dair faktiki göstəricilər barədə məlumatların müvafiq məlumat bazasında əks olunması | 01.09.2024 | Teymur Həsənov, Fariz Əliyev |
| | | | | *Prioritet istiqamət: Aşağı büdcəli (low cost) sərnişindaşımanın təşviqi* | | | | |
| | | | | 2. Aşağı büdcəli hava nəqliyyatı şirkətlərinin sərnişindaşımalara cəlb olunması üzrə subsidiya sxeminin tətbiqi | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Turizm Agentliyi | Əsaslandırılmış təkliflər paketinin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.10.2024 | Teymur Həsənov, Fariz Əliyev, Məhəmməd Muradov |
| | | | | *Prioritet istiqamət: Milli aviadaşıyıcının oturacaq tutumunun (seat capacity) artırılması* | | | | |
| | | | | 3. Oturacaq tutumunun artırılması üçün milli aviadaşıyıcının təyyarələrinin restrukturizasiyası imkanlarının nəzərdən keçirilməsi | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Texniki-iqtisadi əsaslandırmanın hazırlanaraq Komissiyaya təqdim olunması | 01.12.2024 | Teymur Həsənov, Fariz Əliyev |
| 8.3. | 9.03 Fəaliyyət göstərən hava nəqliyyatı şirkətlərinin sayı | 62-ci yer | Ölkədə müntəzəm sərnişin reysləri həyata keçirən aviaşirkətlərin sayı | 1. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin təhlili və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | | İndikator üzrə ölkəmizə dair faktiki göstəricilər barədə məlumatların müvafiq məlumat bazasında əks olunması | 01.09.2024 | |
| | | | | 2. Aviasiya yanacağı qiymətinin azaldılması imkanlarının araşdırılması və nəticələrinə dair arayışın hazırlanaraq Komissiyaya təqdim olunması | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Dövlət Neft Şirkəti | Araşdırma nəticələrinə dair Komissiyaya təqdim edilmiş arayış | 01.12.2024 | |
| | | | | 3. Beynəlxalq təcrübədə hava daşımaları şirkətləri tərəfindən yerüstü xidmətlərin göstərilməsi vəziyyətinin araşdırılması və təhlil nəticələrinə əsasən müvafiq xidmətlərin təşkili məsələsinə baxılması | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | Araşdırma hesabatının və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | | |
| | | | | 4. Yerüstü xidmətlərin (ground handling) təşkilində rəqabətliliyin təmin olunması | "Azərbaycan Hava Yolları" QSC, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | Yerüstü xidmətlərin təqdim edilməsində rəqabətliliyi təmin edən mexanizmin yaradılması | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 8.4. | 9.04 Hava limanı əlaqələri | 76-cı yer, 3,23 bal | Bu göstərici ölkənin qlobal hava nəqliyyatı şəbəkəsinə inteqrasiya dərəcəsini ölçür. Hər bir hava limanı üzrə müxtəlif təyinat nöqtələrinə mövcud yerlərin sayı həmin təyinat hava limanının miqyası ilə ölçülür (daşınan sərnişinlərin sayı baxımından). Daha sonra bütün istiqamətlər üzrə yekunlar və hava limanları üzrə yekunlar cəmlənir. | Komissiyanın “Fiziki infrastruktur” işçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planının 5-ci bəndində nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində zəruri işlərin görülməsi | “Azərbaycan Hava Yolları” QSC | - | İl ərzində | Teymur Həsənov |
| **9. Quru və liman infrastrukturu** | | | | | | | | |
| 9.1. | 10.01 Yolların keyfiyyəti | 31-ci yer, 5,01 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə yol infrastrukturunun keyfiyyəti (genişliyi və vəziyyəti) necədir?” sualına cavab [1 = son dərəcə pisdir; 7 = son dərəcə yaxşıdır]. | *Prioritet istiqamət: Yol infrastrukturunun tikinti keyfiyyətinin yaxşılaşdırılması* | | | | |
| | | | | Yol çəkilişi sahəsində mütərəqqi beynəlxalq təcrübələrin araşdırılması və onların ölkəmizdə tətbiqi ilə bağlı zəruri işlərin görülməsi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Qabaqcıl beynəlxalq təcrübələrin tətbiqinə dair araşdırma hesabatının hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.12.2024 | Asim Məmmədli |
| 9.2. | 10.02 Yolların sıxlığı | 47-ci yer, 3,07 bal | Bu göstərici 100 $km^2$ əraziyə düşən yolların uzunluğunu əks etdirir. Yol şəbəkəsinə avtomobil yolları, magistral yollar, ikinci dərəcəli və ya regional yollar, eləcə də bütün digər yollar daxildir. | *Prioritet istiqamət: Turizmin inkişafına töhfə verəcək yol infrastrukturu layihələrinin icrası* | | | | |
| | | | | 1. Turizm bölgələrinə səfərlərin rahatlığı və təhlükəsizliyinin təmin olunması məqsədilə yol infrastrukturunun yenidən qurulması üzrə layihələrin icra edilməsi | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | Muğanlı-İsmayıllı-Qəbələ yolunun yenidən qurulması | İl ərzində | Asim Məmmədli |
| | | | | 2. İndikatorun hesablanması üçün müvafiq məlumatların ötürülməsi vəziyyətinin araşdırılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | İndikator üzrə ölkəmizə dair faktiki göstəricilər barədə məlumatların müvafiq məlumat bazasında əks olunması | 01.09.2024 | Fariz Əliyev, Asim Məmmədli |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 9.3. | 10.03 Dəmir yolu nəqliyyatı xidmətinin effektivliyi | 12-ci yer, 5,17 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə dəmir yolu nəqliyyatı xidmətləri nə qədər səmərəlidir (tezlik, dəqiqlik, sürət, qiymət baxımından)?” sualına cavab [1 = son dərəcə səmərəsizdir; 7 = son dərəcə səmərəlidir]. | *Prioritet istiqamət: Bakı-Balakən və Bakı-Böyük Kəsik marşrutları üzrə yataq tipli qatarların hərəkətinin bərpası* | | | | |
| | | | | 1. Bakı-Balakən marşrutu üzrə yataq tipli qatarların hərəkətinin bərpası | “Azərbaycan Dəmir Yolları” QSC | Qatarların hərəkət cədvəlinin tərtib olunması və mediada yayımlanması | 01.12.2024 | Orxan Əhmədzadə |
| | | | | 2. Bakı-Böyük Kəsik marşrutu üzrə yataq tipli qatarların hərəkətinin bərpası | | | | |
| | | | | *Prioritet istiqamət: İstehlakçı məmnuniyyətinin artırılması* | | | | |
| | | | | 3. Müxtəlif xidmət sinifləri üzrə həyata keçirilən dəmir yolu daşımalarındakı boşluqların və çatışmazlıqların müəyyən edilməsi məqsədilə müvafiq sorğunun aparılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi | “Azərbaycan Dəmir Yolları” QSC | Aparılmış sorğunun nəticələrinin müvafiq fəaliyyət planı ilə birlikdə Komissiyaya təqdim olunması | 01.11.2024 | Orxan Əhmədzadə |
| | | | | 4. Stansiya, vağzal və platformalarda naviqasiya lövhələrinin quraşdırılması | | Quraşdırılmış naviqasiya lövhələrinin sayı | | |
| | | | | *Prioritet istiqamət: Sərnişindaşıma ilə bağlı dəmir yolu infrastrukturunun modernləşdirilməsi* | | | | |
| | | | | 5. Qatarların modernləşdiril-məsi və onlara texniki xidmətin göstərilməsi üçün müvafiq servis mərkəzinin yaradılması | “Azərbaycan Dəmir Yolları” QSC | “Stadler” qatarları üçün texniki servis mərkəzinin tikintisi | İl ərzində | Orxan Əhmədzadə |
| | | | | 6. Dəmir yolu stansiyalarında infrastrukturun modernləşdirilməsi | | “Stadler Flirt” qatarlarının Bakı-Xırdalan-Sumqayıt marşrutu üzrə istifadəsi üçün uyğun platformaların tikintisi | | |
